***ALİ MƏCLİSİN İCLASI***

*1 dekabr 2025-ci il. Saat $14^{30}$.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının beşinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 14.31 dəq.) |
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasın gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş).

2. Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Asəf oğlu Sadıxovun vəzifəsindən azad edilməsi.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Gündəlik qəbul edilir.

Hörmətli deputatlar!

Gündəlikdə duran ilk məsələ üçüncü oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsidir.

Bildiyiniz kimi, qanun layihəsi 7 noyabr 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20-ci maddəsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.6-cı maddəsinə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Gündəliyin birinci məsələsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli iclas iştirakçıları!

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi Daxili Nizamnamənin tələbinə uyğun olaraq üçüncü oxunuşdan əvvəl aparıcı komitəyə qaytarılmış, komitədə deputatlar tərəfindən qanun layihəsinə hər hansı əlavə və dəyişiklik təklif edilməmişdir. Bu səbəbdən qanun layihəsi üçüncü oxunuşda baxıla bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 21.1-ci maddəsinə əsasən qanun layihəsinin üçüncü oxunuşu zamanı qanun layihəsi bütövlükdə səsə qoyulmalıdır.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 14.34 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi ilə bağlı səsvermədə iştirak edən 44 deputat lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Asəf oğlu Sadıxovun vəzifəsindən azad edilməsidir.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin vəzifəsindən azad edilməsi barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavininin təqdimatı Ali Məclisə daxil olmuşdur.

Təqdimatı diqqətinizə çatdırıram.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavininin təqdimatı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə əsasən Samiq Asəf oğlu Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi təklif olunur.

Nəzərə alınması xahiş olunur.

Təqdimatla bağlı sualı olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndinə, 36-cı maddəsinin II hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsinə uyğun olaraq Ali Məclis tərəfindən təsdiq edilir.

Samiq Asəf oğlu Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərar layihəsi hazırlanmışdır.

Qərar layihəsini diqqətinizə çatdırıram.

"S.A.Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Samiq Asəf oğlu Sadıxov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilsin.

Deputatlardan kim "S.A.Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 14.38 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat qərar layihəsinin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Hörmətli deputatlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!